

# Heydər Əliyev dühası və Üzeyir Hacıbəyli irsi

**Nədənsə həmişə dahi ifadəsi işlənəndə xalq şairi Nəbi Xəzrinin aşağıdakı nisralarını xatırlayıram.**
**Kimdir ən böyük dahi**
**Ən adi insan.**

**Onlardan biri Azərbaycan musiqisinin potriarxı Üzeyir Hacıbəyli, digəri isə dünya siyasətçiləri içərisində adı hörmətlə çəkilən ümummilli liderimiz Heydər Əliyevdir.**

Bəli, əgər cəmiyyətdə hər şey adilikdən, sadəlikdən başlayırsa, doğrudan da dahiliyin də təməli elə bu məziyyətlərdir. Çünki dahilərin adiliyi, sadəliyi onların xalqa bağlılığından irəli gəlir. Belə şəxsiyyətlər bütün həyatlarını xalqın rifahı yolunda ram edirlər. Tanrı belələrini az-az yaradır. Bəlkə də bu əsrdə bir və ya iki belə dahi şəxsiyyət yetişib. Xoşbəxtlikdən 20-ci əsrin yetişdirdiyi iki böyük dahi məhz xalqımızın payına düşüb. Onlardan biri Azərbaycan musiqisinin potriarxı Üzeyir Hacıbəyli, digəri isə dünya siyasətçiləri içərisində adı hörmətlə çəkilən ümummilli liderimiz Heydər Əliyevdir.

Əgər bu iki dahinin əməllərinə nəzər salsaq görərik ki, onların ümumi cəhətləri var. Belə ki, professional musiqi-

mizin inkişafı yolunda bütün janrların ilk yaradıcısı məhz Üzeyir bəydir. Eləcə də Azərbaycanın müstəqillik tarixi yolunda əvəzsiz xidmətlər Heydər Əliyevin adı ilə bağlıdır.

Beləcə xalqımızın tarixinə adları qızıl hərflərlə yazılan daim yaddaşlarda yaşayan bu dahilər Tanrının xalqımıza bəxş etdiyi müqəddəs varlıqlardır. Yeganə fərq onlardan birinin 20-ci əsrin birinci yarısında, digərinin isə əsrin 2-ci yarısında fəaliyyət göstərmələridir. Elə bu mənada bizim nəsil xoşbəxtdir ki, onlardan birinin – ümummilli lider Heydər Əliyevin müasirləriyik. Bu böyük şəxsiyyət öz hərtərəfli bilik səviyyəsi, geniş dünyagörüşü, siyasi baxışları ilə xalqımızın mədəniyyəti, maariflənməsi, siyasi-iqtisadi səviyyəsinin yüksəlişi yolunda mühüm addımlar atmış və müsbət nailiyyətlər əldə etmişdir. Hansı ki, elə Üzeyir bəyin simasında ustad sənətkarların əbədiyaşarlığı, xalqımızın bu günki müstəqilliyi bu nailiyyətin bariz nümunəsidir. Dünya siyasətçiləri içərisində Heydər Əliyev qədər hərtərəfli biliyə malik ictimai xadim çox nadir təsadüfdür. Beləcə, o, musiqinin də bütün janrlarına dərindən bələd idi və bütün bəstəkarların əsərlərini peşəkar bir musiqiçi kimi şərh edirdi. Bu mənada onun Üzeyir Hacıbəyli irsini təhlil edərək Üzeyir bəyin bir insan kimi xeyirxah cəhətlərini açıqlaması tarixin silinməz səhifəsidir. Nə yaxşı ki, qiymətli mənbələr, yadigar lent yazıları var, bu nadir inciləri nəsillərə ötürür.

Elə bu yazıda da, məhz o qiymətli mənbəyə Azərbaycan Televiziyası və Radiosunun zəngin arxivinə müraciət edərək oradan ümummilli liderimiz Ulu öndər Heydər Əliyevin 1995-ci ildə ölməz bəstəkarımız Üzeyir Hacıbəylinin anadan olmasının 110 illik yubileyindəki çıxışının mətnini qələmə alıb oxuculara, sənətsevərlərə çatdırırıq. Bu çıxışda həm yüksək natiqlik, hərtərəfli bilik səviyyəsi nümayiş olunub, həm də Üzeyir bəyin həyat və yaradıcılığı, onun yüksək insani keyfiyyətləri ilə bağlı çox maraqlı faktları öz əksini tapır. Elə ona görə də, hamımız üçün qiymətli olan bu



çıxışın bir kəlməsini belə dəyişmədən olduğu kimi diqqətinizə yetiririk. Beləliklə dahi şəxsiyyətin dahi sənətkar haqqında dediklərindən:

"Üzeyir Hacıbəyli fövqəladə fitri istedadı ilə, böyük fədakarlığı ilə, mükəmməl təhsili, elmi ilə, vətənpərvərliyi ilə, ictimai-siyasi fəaliyyəti ilə Azərbaycan xalqının böyük simalarından biri, dünya korifeylərinin ön sıralarında duran və Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur.

Şuşada ilk təhsilini almış, müqəddəs Şuşanın abı-havasının təsirini duymuş, Natəvan dünyasının, musiqişünas Mir Mövsüm Nəvvab sənətinin, fikrinin təsirini almış, sonra Qori Müəllimlər Seminariyasında yüksək təhsil görmüş və nəhayət, Sankt-Peterburqda Konser-



vatoriyanı bitirərək daha yüksək təhsil almış Üzeyir Hacıbəyli beləliklə, böyük parlaq yaradıcılıq yoluna başlamış və bu yaradıcılıq yolunu şərəflə keçərək Azərbaycan xalqının tarixində görkəmli bir yer tutmuşdur.

Üzeyir Hacıbəyli hələ uşaqlıqdan fitri istedadına görə çox şeyləri öyrənməyə çalışmış və öyrənmişdir. Belə ki, Azərbaycan xalqının tarixini, mədəniyyətini, musiqisini dərindən öyrənmiş və bütün bunları cəmləşdirərək hələ 22 yaşında ikən "Leyli və Məcnun" operasını dünyaya təqdim edərək, böyük bəstəkar kimi özünü tanıtmış, fəaliyyətə başlamışdır. Məhz bu əsərlərlə Azərbaycanda opera sənətinin tarixi başlayır. Azərbaycan xalqının böyük və zəngin teatr tarixi var. Onun banisi böyük Mirzə Fətəli Axundov olmuşdur. Xalqımızın opera sənətinin banisi isə, qeyd etdiyimiz kimi məhz Üzeyir bəy Hacıbəylidir. Onun fədakar zəhmətinin və geniş yaradıcılığının sayəsində Azərbaycan opera sənəti inkişaf etmişdir. Məhz bunun nəticəsidir ki, indi dünyada öz yeri olan bir opera - balet teatrımız var.

Ardıcıl olaraq Üzeyir bəy bir neçə dəyərli musiqi əsərləri yaratmışdır. "Arşın mal alan", "O olmasın, bu olsun" kimi operettaları ilə məşhurlaşmış və bütün sonrakı fəaliyyəti xalqımızın musiqi mədəniyyətinin inkişafına həsr olunmuşdur.

Qeyd etdik ki, Üzeyir bəy ilk və böyük addımını "Leyli və Məcnun" operası ilə başlamış, böyük Məhəmməd Füzulinin poeması əsasında onun sözlərindən istifadə edərək, Azərbaycan xalqının muğam musiqisindən, folklorundan, xalq mahnılarından bəhrələnərək ilk dəfə əsrlərdən-əsrlərə keçmiş bu zəngin musiqini nota köçürmüş, böyük simfonik orkestrlə onun ifasını təmin etmiş və özü də bu orkestrə dirijorluq etmişdir.

Azərbaycan tarix, mədəniyyət, elm, ədəbiyyat, memarlıq sahəsində çox zəngindir. Bizim çoxəsrlik ədəbiyyatımız var. Nizami, Xaqani, Füzuli, Nəsimi, Vaqif və onlardan sonra gələn dahilər. Bizim qədim memarlıq avidələrimiz var. Qədim rəssamlıq sənət nümunələrimiz var.

Dünya sivilizasiya xəzinəsinə Azərbaycan xalqı böyük töhfələr vermişdir. Bunların içərisində ən böyük yer tutan, dünyada məhşur olan musiqi əsərlərini yaradan, Azərbaycanın çoxəsrlik musiqisini cəmləşdirən, formalaşdıran və dünyaya təqdim edən məhz Üzeyir Hacıbəyli olmuşdur. Bu dahi şəxsiyyət ömrünün son gününə qədər həyatını mədəniyyətimizin inkişafına, musiqisimizin inkişafına, insanların maariflənməsinə həsr etmişdir. O, həm yazıçı olmuş, həm publisist olmuş, həm alim olmuş, filosof, ictimai xadim olmuş, dövlət işlərində fəal iştirak etmişdir.

1918-ci ildə Azərbaycanda ilk Demokratik Respublika yaranan zaman Üzeyir bəy o vaxt

gedən ictimai proseslərin fəal iştirakçısı olmuşdur. Görkəmli bir şəxsiyyət kimi bu proseslərin düzgün getməsinə təsir etmiş və o ağır, çətin dövrdə xalqımızın milli mənliyinin yüksəlməsi üçün çox səylər göstərmişdir. Bununla da o, Azərbaycanda yaranmış ilk müstəqil respublikanın yaşaması, onun ərazi bütövlüyünün qorunması üçün mühüm cəhdlər göstərmişdir. Onun Parisə - Versal Konfransına gedən Azərbaycan nümayəndələrinə hansı ki, bəstəkarın kiçik qardaşı Ceyhun Hacıbəyov da bu tərkibdə var idi, onlara verdiyi məsləhətlər, tövsiyyələr bu deyilənlərə əyani sübutdur.



Üzeyir Hacıbəyli müstəqil Azərbaycan Dövlətinin ilk Azərbaycan qəzetinin redaktoru olmuş, öz məqalələri ilə və rəhbərliyi ilə bu qəzetin fəaliyyət göstərməsində mühüm xidmətlər göstərmişdir.

Sonrakı dövrlərdə də o, Azərbaycan ictimaiyyətinin mərkəzində durmuşdur. Xalqı savadsızlıqdan xilas etmək üçün, xalqın mədəniyyətini inkişaf etdirmək üçün o, çox görkəmli addımlar atmış, böyük tədbirlər görmüşdür.

Azərbaycanda musiqi məktəbinin yaranması, musiqi təhsilinin formalaşması, incəsənətin geniş sahədə inkişaf etməsi Üzeyir Hacıbəylinin fəaliyyəti ilə bağlıdır.

Azərbaycanda Üzeyir Hacıbəyli məktəbinin təsiri altında bəstəkarlar ordusu yaranmışdır. Deyə bilərəm ki, - Azərbaycan bəstəkarı ifadəsini işlədəndə o, ilk bəstəkardır. Ondan sonra gələn Azərbaycan bəstəkarlarının hamısı bilavasitə onun tələbəsi olmuş, sonrakı nəsillər isə Üzeyir Hacıbəylinin əsərlərinin, yaradıcılığının təsiri altında böyüyərək, təhsil almış, formalaşmış və yeni-yeni musiqi əsərləri yaratmışdır.

Üzeyir bəyin əsərlərində tək musiqi yox, onların ictimai-siyasi, mənəvi məzmunu böyük əhəmiyyət kəsb edir. Bu əsərlərin hamısında insan azadlığı tərənnüm edilibdir. İnsanın paklığı, insan səmimiyyəti, insanların bir-birinə münasibəti bəstəkarın əsərlərinin əsas qayəsini təşkil edir. Bu "Leyli və Məcnun"da da belədir. "Arşın mal alan"da da, "O olmasın, bu olsun"da da, hətta Üzeyir bəyin şah əsəri olan "Koroğlu"da da belədir.

Üzeyir Hacıbəylinin yaradıcılığının ən əsas cəhəti ondan ibarətdir ki, o, əsərlərinin yalnız musiqisini yox məzmununu, mövzusunu da kəşf edib, yaradıbdır. Onun seçdiyi mövzular və bu mövzulara uyğun yaratdığı musiqi əsərləri heç də təsadüfi xarakter daşımır. "Leyli və Məcnun" operası da təsadüfi olaraq "Leyli və Məcnun" kimi deyil, dahi şairimiz Füzulinin "Leyli və Məcnun" əfsanəsi əsasında yazdığı poemadakı humanist, insanpərvər, azadlıq fikirləri bəstəkarı o qədər özünə cəlb etmişdi ki, insanın insana pak-saf məhəbbəti onda o qədər yüksək təsir yaratmışdır ki, bunun nəticəsi

olaraq Füzulinin söz dünyasından inkişaf alan, Şərqin ilk operası "Leyli və Məcnun" yaranmışdır. Biz əminik ki, uzun illər bəlkə də əsrlər boyu bu əsərlər yaşayacaq.

Operettalarında Üzeyir bəy təkcə gözəl musiqi ilə insanlara zövq vermək yox, onları güldürmək, şənləndirmək yox, başqa məqsədə daha çox üstünlük verir. Onun məqsədi insanlar üçün ən təsirli vasitə olan musiqi ilə xalqımızın həyatına daxil olan mənfi cəhətləri - əxlaqı, nadanlığı, xalqı geri qoyan adət-ənənələri tənqid etmək, ifşa etmək, xalqın gözünü açmaq, onu irəli aparmaq və xalqın mədəniyyətinin səviyyəsini yüksəltməkdən ibarət idi. Şübhəsiz ki, bunlar musiqi əsəri vasitəsilə insanlara daha tez çatır. Yeri gəlmişkən onu da deyim ki, ümumiyyətlə, hər bir bədii əsər insanlara müsbət təsir göstərir. Belə ki, onların xarakterlərinin formalaşmasına, dünyagörüşünün artmasına, mədəni səviyyəsinin yüksəlməsinə təsir edir. Amma musiqi əsəri vasitəsilə göstərilən təsir bütün o biri əsərlərin təsirindən daha yüksəkdir. Əgər, nəzərə alsaq ki, 20-ci əsrin əvvəllərində insanların əksəriyyəti savadsız idi, kitab oxuya bilmirdi və kitablar da çox az idi, kino yox idi, televiziya yox idi, başqa vasitələr yox idi, təsəvvür edin Üzeyir Hacıbəyli yaradıcılığının, onun opera vasitəsilə Məhəmməd Füzulinin sözlərini xalqa çatdırması, "Arşın mal alan" və "O olmasın, bu olsun" operettaları və başqa əsərlərinin musiqisi vasitəsilə insanların mənəvi aləminin zənginləşməsində nə qədər müsbət xidmətlər göstəribdir.



Dediyim kimi Üzeyir Hacıbəyli bütün əsərlərində xalqın – insanların azadlığını tərənnüm edib. Zülmə, hökmdarllığa qarşı çıxış edibdir və bunun nümunəsi kimi qədim dastanımız olan "Koroğlu"-dan Üzeyir bəy tərəfindən istifadə edilməsi, hesab edirəm ki, Azərbaycan mədəniyyətində, Azərbaycan tarixində, Azərbacanın bədii həyatında çox böyük və əvəzsiz bir vasitədir.

"Koroğlu" - dastanı əsrlər boyu nəsillərdən-nəsillərə keçib və bizim günlərə gəlib çatıbdır. "Koroğlu" dastanı insanları həmişə qəhrəmanlığa, cəsurluğa dəvət edibdir, insanlarda vətənpərvərlik əhval-ruhiyyəsi yaradıbdır. "Koroğlu" dastanı həmişə insanları zülmə qarşı mübarizəyə, azadlığa çağırıbdır. Bu dastan ona görə həmişə sevilibdir ki, burada xalqın həyatı üçün, gələcəyi üçün vacib olan ən əhəmiyyətli fikirlər cəm olubdur. "Koroğlu" dastanının nəinki xalqımıza, hətta bütün dünyaya daha da təsirli çatdırılmasında Üzeyir bəyin "Koroğlu" operasının yaranması mühüm amil və mədəniyyətimizdə inqilabi bir hadisədir.

Üzeyir bəy indiyə qədər böyük bəstəkar, alim, publisist kimi tanınır və biz onun yubileylərini qeyd edərkən məhz yaradıcılığının bu cəhətlərini işıqlandırmışıq. Mən böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, bu yubileylərin əksəriyyətinin keçirilməsinin təşkilatçılarından və iştirakçılarından olmuşam.

Üzeyir Hacıbəylini xalqımız heç vaxt unutmayıb. O, yaşadığı zamanda da həmişə sevilibdir. Dünyasını dəyişəndən sonra isə o, bizim sevimlimiz olaraq əbədiyyən xalqın yaddaşında qalıbdır və bizim mədəniyyətimiz daim onun yaradıcılığından bəhrələnərək inkişaf edibdir. Elə bunun üçün də xalqımız hər il onun doğum gününü belə təntənə ilə qeyd edir. Üzeyir bəyin 90 illik və 100 illik yubileylərini daha yüksək şəkildə qeyd etdiyimiz mənim xatirimə gəlir. Belə ki, 1975-ci ildə həm respublikamızda, həm də o vaxtkı Sovetlər İttifaqının bir neçə şəhərində, həm də müəyyən mənada elə dünyada biz bəstəkarın 90 illik yubileyini qeyd etməyə nail olduq. Və o zaman yəni 1975-ci ildə ilk dəfə Azərbaycanda – Bakıda mədəniyyət xadimlərindən məhz Üzeyir Hacıbəylinin evi - "ev muzeyi"inə çevrildi. Muzeyə daim Üzeyir bəylə yaxından ünsiyyətdə olan Ramazan Xəlilov direktor təyin edildi. Mən bu muzeyin işindəki xidmətlərinə və Üzeyir bəy irsini layiqincə yaşatdığına görə 95 yaşlı Ramazan müəllimi "Şöhrət ordeni" ilə təltif etmişəm.

1985-ci ildə bəstəkarın 100 illik yubileyi də yenə böyük təntənə ilə qeyd olundu. Hətta, o vaxt Moskva şəhərinin ən böyük sütunlu salonunda bu yubiley qeyd olunarkən, oraya Sovetlər İttifaqının bütün respublikalarından çoxlu sayda nümayəndələr gəlmişdilər, böyük rus bəstəkarları, musiqiçiləri orada çıxışlar edərək Üzeyir bəy haqqında xatirələrini söylədilər. Sözsüz ki, bunları eşidərkən biz hamımız böyük iftixar hissi keçirirdik. Və nəhayət bu gün biz Üzeyir Hacıbəylinin 110 illik yubileyini qeyd edirik. Mən özümü çox xoşbəxt sayıram ki, bu 90 illik, 100 illik və elə bugünkü 110 illik yubileylərin keçirilməsinin rəhbəri, təşkilatçısı və iştirakçısıyam. Bu yubileylər zamanı tədqiqatçılar, alimlər, musiqişünaslar çıxış edərək Üzeyir bəyi daha çox bir musiqiçi kimi şərh etmişlər. Bəlkə də bu tarixdə ilk dəfədir ki, dahi sənətkarın irsi haqqında Respublikanın prezidenti belə ətraflı çıxış edir. Bu heç də təsadüfi deyil. Çünki Üzeyir bəy dahi bəstəkar, publisist, ictimai xadim, alim, tədqiqatçı, maarifçi kimi xalqımızın milli dirçəlişinin, milli azadlığının formalaşmasında əvəzolunmaz xidmətlər göstərmişdir. Məhz Üzeyir Hacıbəylinin əsərlərindən ruhlanaraq bizim Azərbaycan gəncliyi, Azərbaycan vətəndaşları vətənlərini daha da çox sevmişlər və bu musiqinin təsirinə düşərək onlar bir daha dərk etmişlər ki, xalq, millət nə qədər əzizdir.

Üzeyir Hacıbəyli böyük vətəndaş olmuşdur. 1918-ci illərdə, Azərbaycanın ən ağır tarixi mərhələsində yəni ilk müstəqillik dövründə onun fəaliyyəti əvəzsizdir. Əgər tarixə nəzər salsaq görərik ki, Üzeyir Hacıbəyli üç hakimiyyət dövründə yaşayıbdır.

İlk dövr Azərbaycanda çar Rusiyasının hakimiyyəti dövrü idi. Sonra iki il – 1918-20-ci illər müstəqillik dövrü. Ondan sonra da Azərbaycanda Sovet Hakimiyyəti quruldu və 1991-92-ci ilə qədər bu hakimiyyət davam etdi. Hər üç mərhələdə də hakimiyyətin xarakterindən və formasından asılı olmayaraq Üzeyir bəy layiqincə xalqına xidmət etmişdir və bu gün bunu deməyə əsas var ki, Üzeyir Hacıbəyli belə düşünüb ki, xalqa sədaqətlə xidmət edən adam, xalqın irəli getməsi üçün çalışan adam heş nə ilə hesablaşmamalıdır. Bax, Üzeyir bəy belə olmuşdur.

Keçmiş zamanlarda Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından danışarkən yalnız onun əsərləri haqqında deyirdilər. Amma onun o dövrlərdə yəni 20-ci əsrin əvvəllərindən 1920-ci ilə qədərki ictimai-siyasi fəaliyyəti haqqında heç bir söz deyilmirdi. Bəzən xəlvəti olaraq onu musavatın üzvü olmasını vurğulayırdılar. Bu isə tarixin ən üzdə olan hadisəsidir ki, Üzeyir Hacıbəyli 1920-ci ildən 1948-ci ilə qədər yəni ömrünün sonuna kimi Sovet hakimiyyətinin quruculuğunda və daim ləyaqətli oğul kimi vətəninə xidmət etmişdir. Yenə də qeyd edirəm ki, Üzeyir Hacıbəyli hansı hakimiyyətdə yaşamasından asılı olmayaraq həmişə xalqın inkişafı və irəli getməsi üçün çalışmışdır. Onun Azərbaycan mədəniyyətinin və elminin çiçək-

lənməsində fövqəladə xidmətləri var.

Əvvəldə qeyd etdim ki, bəstəkarın 1937-ci ildə yaratdığı "Koroğlu" operası əsil mədəni inqilab idi. Bu əsərin Sovetlər İttifaqının mərkəzi olan Moskvanın Kreml sarayında səslənməsi xalqımız üçün son dərəcə böyük fəxr idi.

Əgər vaxtilə Peterburqda bir tələbə kimi KONSERVSATORIYADA TƏHSIL ALMIŞDISA, MƏHZ 1937-CI ILDƏ Üzeyir Hacıbəyli böyük tarixə malik olan Rusiya dövlətinin möhtəşəm sarayında yüksək dairədən olan ictimai xadimlər tərəfindən böyük hörmətlə qarşılandı. Bunlar hamısı tarixin qızıl səhifələridir ki, onları unutmaq olmaz.

**"Azərbaycan heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik".**

**HEYDƏR ƏLİYEV,**
**Xalqımızın Ümummilli lideri**

Üzeyir Hacıbəyli 1941-45-ci illər yəni Böyük Vətən müharibəsi zamanı xalqımızda vətənpərvərlik ruhunu qaldırmaq üçün gözəl əsərlər – mahnılar və marşlar yazmış, faşizm üzərində qələbə çalınması üçün böyük xidmətlər göstərmişdir. Hətta, o, öz vəsaiti ilə təyyarə alıb, onu Sovet Ordusuna hədiyyə etmiş, cəbhəyə göndərmişdir.

Öz yaradıcılığı ilə yanaşı həm də ictimai-siyasi fəaliyyəti ilə də daim seçilən Üzeyir Hacıbəyli həm 1918-20-ci illərdə ilk Demokratik Azərbaycan Respublikasının, həm də 1920-ci ildən Sovet Hakimiyyəti dövründə mövcud olan parlamentlərin üzvü olmuşdur. Bu da tarixi həqiqətdir bunları da unutmaq olmaz.

Üzeyir Hacıbəylinin ən böyük xidmətlərindən biri də müstəqil Azərbaycan Respublikasının himnini yaratmasıdır. Tarixdən məlumdur ki, o, himn sonra kənarlaşdırıldı. 1945-ci ildə Sovet Sosialist Respublikasının – yəni Azərbaycanın yeni himni yarandı və onu da Üzeyir bəy yazdı. Nəhayət, Azərbaycan yeni müstəqillik əldə edəndən sonra Üzeyir bəyin 1919-cu ildə yaratdığı ilk dövlət himnini biz yenidən bərpa etdik. Bunlar hamısı Azərbaycanın tarixi və eləcə də Üzeyir Hacıbəylinin həyat və yaradıcılığının mərhələləridir.

Üzeyir Hacıbəylinin yaşadığı hər gün, yazıb-yaratdığı hər bir not vərəqi bizim üçün qiymətlidir. Eyni zamanda bu dahi şəxsiyyətin ictimai-siyasi fəaliyyəti çox qiymətlidir. Çünki bunlar hamısı – Azərbaycan xalqının dirçəlişinə, özünü tanımasına və mədəniyyətin inkişafına xidmət edibdir. Bunlar heç vaxt unudula bilməz. Bütün bunlara görə də Üzeyir Hacıbəyli yaradıcılığı bizim milli iftixarımızdır.

Üzeyir Hacıbəyli gəncliyini Şuşada keçiribdir. Şuşa hər bir azərbaycanlı üçün müqəddəs və əzizdir. Bu böyük şəxsiyyət daim torpaqlarımızın ərazi bütövlüyü üçün də çalışmışdır. Onun 1918-20-ci illərdə yazdığı məqalələrini oxuyanda görürsən ki, onlar necə də bu günümüzlə səsləşir, nə qədər aktualdır. Bax, həmən o vaxtkı vəziyyət yenə də meydana çıxıbdır. Ermənistanın Azərbaycana qarşı qəsbkarlığı, Azərbaycan torpaqlarını ələ keçirmək cəhdi və vətənpərvər insanların Azərbaycanı qoruması. O vaxt da belə olubdur və o vaxt da Üzeyir bəy bu yolda durmadan çalışıb, mübarizə aparıbdır. Təəssüf ki, tarix bu gün də o vaxtkı kimi təkrar olunur və biz də Üzeyir Hacıbəyli kimi insanların yolunu davam etdirərək müstəqil respublikamızın rifahı üçün çalışmalıyıq.

Onu da qeyd etməliyəm ki, müqəddəs Şuşa şəhərində də Üzeyir bəyin ev muzeyi yaradılmışdı. Mən dəfələrlə oranı ziyarət etmişəm. Və Şuşada Üzeyir Hacıbəylinin heykəli də qoyulmuşdur. Onunla yanaşı Xan qızı Natəvanın və Bülbülün də Şuşada heykəlləri



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşada Üzeyir bəyin heykəlinin açılışında**

var idi. 1992-ci ilin may ayında Şuşa ermənilər tərəfindən işğal olundu. İşğalçılar çox şeyləri dağıtdılar. O cümlədən mədəni abidələri də. Amma Üzeyir bəyin, Natəvanın və Bülbülün heykəllərini nəinki dağıtdılar, hətta ermənilərin vəhşiliyi o qədər özünü büruzə verdi ki, onlar bu müqəddəs insanların heykəllərini güllələdilər. Yenə də nə yaxşı ki, heç olmasa o heykəllər əsirlikdən xilas olub, Gürcüstan vasitəsilə Azərbaycana gətirildi. İndi bizim İncəsənət muzeyində nümayiş etdirilir. O düşmənlər hansı ki, bu heykəllər avtomatla atəş açıblar vaxtilə onlar elə Üzeyir bəyin özünü də vurmağa çalışıblar. Amma, buna nail olmayıblar.

Bax, bu tarixi faktlar çox ağır hadisələrdir. Bunlar bir daha ermənilərin vəhşiliyinin, faşistliyinin amilləridir. Amma onlar bu mənfi cəhətləri ilə heç vaxt Üzeyir Hacıbəyli, Bülbül, Natəvan yaradıcılığına xələl gətirə bilməzlər. Onlar heç vaxt öz vəhşilikləri ilə bu xalqın mədəniyyəti, mənəviyyatını sarsıda bilməzlər. Onlara elə gəlməsin ki, Şuşamızın işğalı daimidir. Yox, ola bilməz.

Biz bu gün Üzeyir Hacıbəylinin yubileyini qeyd edərkən əmin olduğumuzu bildiririk ki, bu böyük şəxsiyyətin irsi yaşayacaq və onun yaşadığı yerlərin hamısı ziyatərgaha çevriləcəkdir. Biz əminik ki, Azərbaycan torpaqları erməni işğalçılarının əlindən qurtulacaqdır.

Biz əminik ki, Şuşa azad olacaqdır. Üzeyir Hacıbəylinin və onun simasında digər ölməz sənətkarlarımızın da ruhları şad olacaq."

**"Azərbaycan heç vaxt öz torpaqlarını kimsəsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, Güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik".**

**Heydər ƏLİYEV,**
**Xalqımızın Ümummilli lideri**



"Xoşbəxt adamam ki,
ata vəsiyyətini yerinə yetirdim.
Şuşanı azad etdik.
Bu böyük Qələbədir.
Şəhidlərimizin,
Uluöndərin ruhu şaddır bu gün!
Gözün aydın olsun Azərbaycan!
Gözünüz aydın olsun
dünya azərbaycanlıları!
Əziz şuşa sən azadsan!
Əziz Şuşa bir qayıtmışıq!
Əziz Şuşa biz səni dirçəldəcəyik!
Şuşa bizimdir!
Qarabağ bizimdir"
Qarabağ Azərbaycandır!

İLHAM ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Qeyd etdik ki, dahi şəxsiyyətin dahi sənətkar haqqında bu çıxışı 1995-ci ilə aiddir. Xalqının cəsarətinə və Dövlətimizin gücünə bələd olan Ulu öndərimiz Heydər Əliyev Şuşanın azad olacağını və Üzeyir bəyin yubileylərinin, xatirə günlərinin məhz müqəddəs Şuşamızda qeyd olunacağını əminliklə vurğulayırdı. Elə isə Heydər Əliyev dühasının tarixə çevirən kəlamlarından bir nümunəni yada salaraq onun reallığına da nəzər yetirək.

Beləcə, möhtərəm Prezidentimiz uğurlu siyasəti, rəşadətli ordumuzun qələbəsi dahilərin də ruhunu şad etdi. Şuşadan Heydər Əliyev dühasının ənənələri və Üzeyir Hacıbəyli irsinin təbliği müqəddəs amalla, müqəddəs torpaqda uğurla davam olunur.

**Səadət TƏHMİRAZQIZI**